*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

*1933-cü ildən nəşr olunur*

№ 56-57 (7293-7294) ❁ Çərşənbə, 12 avqust 2015-ci il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyev Beynəlxalq İdman Atıcılıq Federasiyasının prezidentini və baş katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Beynəlxalq İdman Atıcılıq Federasiyasının prezidenti Oleqario Vaskes Ranyanı və baş katibi Frans Şrayberi qəbul edib.

Oleqario Vaskes Ranya birinci Avropa Oyunlarının açılış mərasimində iştirakını məmnunluqla xatırlayaraq həmin oyunların yüksək səviyyədə təşkilinin və ümumilikdə ölkəmizdə gedən inkişaf proseslərinin, insanların göstərdiyi dost münasibətlərinin onda dərin təəssürat yaratdığını dedi. Beynəlxalq İdman Atıcılıq Federasiyasının prezidenti dünyanın 90 ölkəsindən 2000-ə yaxın idmançının iştirak etdiyi atıcılıq üzrə Dünya Kuboku yarışlarının da Qəbələdə ən müasir standartlar səviyyəsində təşkil olunduğunu və bu tədbirin idman sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyini vurğuladı.

Dövlətimizin başçısı müxtəlif beynəlxalq tədbirlərin, o cümlədən dünya səviyyəli idman yarışlarının keçirilməsi üçün təkcə ölkəmizin paytaxtında deyil, regionlarda da müasir infrastrukturun yaradıldığını vurğuladı və bu baxımdan atıcılıq növləri üzrə Dünya Kuboku yarışlarının Qəbələ şəhərində keçirilməsinin önəmini qeyd etdi.

Görüşdə Beynəlxalq İdman Atıcılıq Federasiyası ilə ölkəmizin müvafiq qurumları arasında əməkdaşlığın uğurlu inkişafından məmnunluq ifadə olundu.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Siyəzən-Məşrif Avtomobil yolunun və dünya səviyyəli «Qalaaltı» Beynəlxalq Müalicə və İstirahət Kompleksinin açılışlarında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti ilham Əliyev avqustun 8-də bir neçə kəndi birləşdirən və 37,1 kilometr uzunluğunda olan Siyəzən-Məşrif Avtomobil yolunun açılışından sonra Şabran rayonunun ərazisində yerlçşən «Qalaaltı» Hotel & SPA müasir müalicə-istirahət kompleksinin açılışında iştirak edib.

Kompleks Azərbaycanın qədim tarixi-mədəniyyət abidələrindən olan Çıraqqalanın yaxınlığında, sıldırım qayanın altında yerləşir. Dəniz səviyyəsindən 700 metr yüksəklikdə yerləşən yeni kompleks məşhur "Qalaaltı" kurortunun bazasında inşa edilib. Təxminən 7,1 hektar sahəsi olan kompleksdə 354 nəfəri qəbul edə biləcək hotel, villa və kotteclər var.

Dövlət başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsmiş, kompleksin kollektivi ilə görüşmüş və ölkədə turizmin inkişaf istiqamətlərindən danışmış, «Qalaaltı» beynəlxalq müalicə və istirahət kompleksinin istifadəyə verilməsinin gözəl və əlamətdar bir hadisə olduğunu söyləmişdir. Cənab Prezident görüş zamanı demişdir: "Dünya səviyyəli "Qalaaltı" beynəlxalq müalicə və istirahət kompleksinin fəaliyyətə başlaması ölkəmizin sürətli və hərtərəfli inkişafının göstəricisidir".

Cənab prezident kollektiv ilə görüşünün sonunda əmin olduğunu bildirmişdir ki, burada çalışanlar vəzifə borcunu şərəflə yerinə yetirəcəklər.